

Nizami Gəncəvi

# SLAVYAN GÖZƏLİNİN HEKAYƏTİ



Günlərin bir günü slavyan gözəli qırmızı günbəzində əyləşib Bəhram şahın yolunu gözləyirdi. Onun yanaqları bir dilim alov kimi alışıb-yanır, al-qırmızı qiyafəsi günəş təki şölə saçırdı.

Bəhram şah qırmızı libas geyinib qırmızı günbəzə, slavyan gözəli Nəsrinnuşun hekayətini dinləməyə gəldi.

Slavyan gözəli şahı böyük ehtiramla qarşılayıb hekayətinə belə başladı:

— Qədim zamanlarda rus elinin şan-şöhrətli bir hökmdarı vardı. Onun qızının gözəllikdə tayı-bərabəri yox idi. Üzü bahar çiçəyi kimi təravətliydi, zərif və gözəldi. Gözləri nərgiz kimi xumar idi. Boyu sərv ağacına bənzəyirdi. Yanaqları çıraq kimi alışıb-yanırdı. Gülüşü gül qönçəsi təki cazibəliydi. Bu qızın daxili də zahiri kimi zəngin və gözəldi. Ağlı, kamalı ilə o, hər kəsi heyran qoyurdu. Bu qız çox hikmət öyrənmiş, çox tilsim kitablarını başa vurmuş, şöhrəti dünyaya yayılmışdı. Uzaq-uzaq ellərdən elçilər axışıb gəlir, qızın məhəbbətini qazanmaq üçün canlarından keçirdilər. Şahzadə qızın isə könül quşu heç kimə qonmurdu. Günlərin birində atasından icazə alıb uca dağ başındakı qalaya çəkildi. Qalanın yollarını sehrlədi. İndi bu qalaya quş gəlsə, qanad salar, qatır gəlsə, dırnaq tökərdi. Göylərə baş çəkən bu qalada şahzadə qızın gördüyü ancaq ulduzlar, həmsöhbəti ancaq səyyarələr oldu.

Qız daşa və dəmirə də tilsim oxudu. Qalaya uz tutan qəhrəmanın qılıncı qayıdıb özünü parçalayırdı. Burada təkcə keşikçi hərlənə bilərdi. O da ehtiyatsızlıq eləsəydi, parça-parça olardı.

Deyirlər, xəzinə gözdən uzaq olduqca qiyməti artır. Bu sehrli qız da beləcə gözəllik taxtında sevənlərin fikrini, xəyalını əlindən aldı. Bu tilsimli qala yolunda çoxları başından keçdi.

Bu gözəl pəri həm də gözəl nəqqaşdı, əvəzsiz rəssamdı. Ən incə duyğuları da rəsmə çevirməyi bacarırdı. Nəyi çəksə canlı çəkirdi.



Güman eyləyirdin ki, şəkildəki su axır, kölgə səni sərinlədir, günəşin işığı gözlərinə düşür.

Günlərin bir günü bu gözəl pəri öz şəklini çəkib altında bu sozləri yazdı:

— Yerim-yurdum bu əlçatmaz qaladır. Bura ayaq basmaq hər oğulun işi deyil. Hansı igid özünə güvənirsə, buyursun gəlsin. Mənim dörd şərtim var. Birinci: bu igid gərək şan-şöhrət sahibi olsun: namusu, qeyrəti, gözəlliyi, mərdliyi dillərdə söylənsin! İkinci: ağlı-kamalı möcüzə yaratsın, qala yolundakı tilsimi aça bilsin. Üçüncü: mənim vüsalıma qovuşmaq istəyən cəngavər hünəri ilə qoy məni heyrətə salsın — bu igid damdan yox, qala qapısından yanıma yol tapsın! Dördüncü: bu üç şərti keçən igid birbaşa şəhərə — atamın sarayına getsin. Mən sarayda ona suallar verəcəyəm. Əgər suallarıma ləyaqətlə cavab versə, onu özümə ər seçəcəyəm. Kim bu şərtləri ödəməsə, leşi qurda-quşa yem olaçaq.

Şərtlər şəhərin alaqapısından asıldı. Dəliqanlılar bu imtahanlarda bəxtlərini sınamağa girişdilər.

Günlərin bir günü igid bir şahzadə el gözəlinin şəklini görüb heyrətə gəldi. Bir könüldən min könülə qıza aşiq oldu. Bu tilsimi açmağa, bu dünya gözəlinə qovuşmağa qəlbində bir arzu baş qaldırdı. Yuxusu ərşə çəkildi.

Qızın görüşünə getməzdən əvvəl şahzadə dünyagörmüş bir qocanın yanına gəldi. Bu qoca da sıldırım dağların qoynunda əlçatmaz bir mağarada yaşayırdı. Bütün möcüzələrin açarı onun əlində idi. Ən sirli tilsimləri ağlının gücü ilə sındıra bilirdi. Şahzadə müdrik qocadan məsləhət istədi. İxtiyar baba dağ başındakı əlçatmaz qalaya yol tapmağın sirlərini şahzadəyə öyrətdi. Şahzadə polad zireh geyindi, qalaya gedən yolu dəstələyib aldı əlinə. Qoca öyrətdiyi əfsunu oxuduqca tilsimləri bir-bir sındırıb atdı.

Şahzadə qız igidin ağlına, fərasətinə heyran qaldı və atasının yanına yollandı.

Hökmdar qızının gəlişindən sevindi. Şahzadə qız başına gələnləri bir-bir atasına söylədi.

Təbillər vuruldu. Carçılar car çəkib hamını məclisə yığdı.





Şahzadə qız qızılı saplardan toxunmuş don geyinib məclisin başına keçdi. Pərdə arxasından şahzadəni növbəti imtahana çəkdi.

Qız bir cüt sırğasını açıb oğlana göndərdi — bu, birinçi sual idi. Oğlan üç sırğa da üstünə qoyub dərhal qıza qaytardı. Qız çavabdan məmnun oldu. Qız demək istəyirdi ki, həyat iki gündür. Fürsəti əlindən vermə. Şahzadə üç gün də əlavə edib bildirdi ki, beş gün olsa, yenə azdır...

Qız sonra şəkər əzib sırğalara qarışdırdı — yenə şahzadəyə göndərdi. Şahzadə dərhal süd istədi. Südü sırğaların üstünə töküncə şəkər süddə əridi — dürr aydınca göründü. Bunu da geri qaytardı. Qız cavabdan yenə razı qaldı. O, demək istəyirdi ki, dürr ilə şəkər qarışdığı kimi mənim ömrüm də şöhrətlə qarışıb. Kimdə hünər varsa bunları ayırsın.



Oğlan sübut etdi ki, bir damcı halal süd dürrü şəkərdən ayıra bilər...

İgid bu sınaqdan da uğurla çıxdı.

Hökmdar qızıl tacı gətirib şahzadənin başına qoydu. Qırx gün, qırx gecə toy vurdurub qızını şahzadəyə verdi. Bəy də, gəlin də qıpqırmızı geyinmişdi. Onlar bir cüt dağ laləsina bənzəyirdilər...

Bəhram şah slavyan gözəlinin hekayətini dinləyib razı qaldı. Qələbə rəmzi sayılan lalənin, damarlarda quş kimi çırpınan qızıl qanın rəngi şahın gözünə işıq, dizinə qüvvət gətirdi. Hamı bildi ki, əsl yaxşılıq al rəngində olur. Qızılgül qırmızı olmasaydı, güllərin şahı sayılmazdı ki!









Kiçik yaşlı uşaqlar üçün

Nizami Gəncəvi

**SLAVYAN GÖZƏLİNİN HEKAYƏTİ**

Çapa imzalanıb: 01.03.2019
Formatı 60x84 1/8.
Həcmi: 1 ç.v.
Tirajı: 500 nüsxə.